# Energetika naziri Lənkəranda vətəndaşları qəbul edib

**Energetika naziri Pərviz Şahbazov mayın 31-də Lənkəranda Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Lənkəran filialının inzibati binasında vətəndaşları qəbul edib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Lənkəran, Astara və digər rayonlardan olan vətəndaşlar iştirak ediblər. Vətəndaşların müraciətləri elektrik enerjisinə görə yaranan borcun silinməsi, elektrik enerjisi ilə bağlı texniki şərtin verilməsi, elektrik enerjisinin keyfiyyəti, elektrik enerjisi təchizatında fasilələr, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, qazlaşma, işlə təminat və digər məsələlərlə bağlı olub.

Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar diqqətlə dinlənilib, müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. Qəbulda ümumilikdə 30-dək vətəndaşın müraciətinə baxılıb.

Qəbula gələnlər bölgələrdə vətəndaşların qəbulunun təşkilinə, göstərilən hərtərəfli diqqət və qayğıya, yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Lənkəranda təşkil olunmuş qəbullar barədə vətəndaşların ətraflı məlumatlandırılması üçün KİV-lərdə, Energetika Nazirliyinin rəsmi internet saytında (www.minenergy.gov.az) və “Facebook” səhifəsində elanlar verilib, nazirliyin saytında vətəndaşların qəbulu üçün elektron müraciətlərin onlayn qeydiyyata alınması məqsədilə imkanlar yaradılıb.

**AZƏRTAC**

Respublika.- 2019.- 1 iyun.- S.5